**Emin MƏLİKOV** *

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ YOL VƏ NƏQLİYYAT İNFRASTRUKTURUNUN İNKİŞAFI (2003-2018)

**Acar sozlər:** Lənkəran, Lerik, Astara, Cəlilabad, Yardımlı, Masallı
**Key words:** Lankaran, Lerik, Astara, Jalilabad, Yardimli, Masalli
**Ключевые слова:** Ленкорань, Лерик, Астара, Джалилабад, Ярдымлы, Масаллы

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkədə yol və nəqliyyat infrastrukturunun inkişafına şərait yaratmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq yol infrastrukturu yenidən qurulmuş, nəqliyyatın intensivliyi təmin edilmişdir.

Dövlət başçısı bu sahədə mövcud problemlərin kompleks həlli məqsədi ilə 25 oktyabr 2005-ci il tarixində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır [1, s.228]. Sərəncama uyğun olaraq Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və inkişafına dair Dövlət Proqramı (2006-2015) hazırlanmışdır. Dövlət Proqramı çərçivəsində avtomobil yollarında 3017 km., o cümlədən 1103 km. respublika əhəmiyyətli və 1194 km. yerli əhəmiyyətli yol çəkilmiş, yenidən qurulmuş, təmir edilmişdir [2, s.169]. Araşdırmalar göstərir ki, xüsusilə 2006-cı ildən etibarən yol infrastrukturuna daha böyük vəsait qoyuluşu həyata keçirilmiş, Bakı-Quba, Bakı-Qazax, Bakı-Astara və s. istiqamətlərdə 100 km-lərlə avtomobil yolu yenidən qurulmuş, müxtəlif ərazidə yeni yollar çəkilmiş və yüzlərlə yol ötürücüsü istifadəyə verilmişdir [3, s.197].

Cənab İlham Əliyev Nazirlər Kabinetinin 2006-cı ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında demişdir: "Nəqliyyat infrastrukturunun genişlənməsi məsələləri də çox böyük önəm daşıyır. Azərbaycanın əlverişli coğrafi vəziyyəti ölkəmizi nəqliyyat mərkəzinə çevirir. Amma

*Məlikov Emin - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, tarix üzrə fəlsəfə doktoru.

bunu təmin etmək üçün təkcə coğrafi vəziyyət kifayət deyil, müasir nəqliyyat infrastrukturu da olmalıdır. Aeroportlar tikilməlidir, digər nəqliyyat infrastrukturu yaranmalıdır" [4]. 2003-2018-ci illərdə respublikanın cənub-şərq bölgəsinin yol təsərrüfatı və nəqliyyat sistemi inkişaf dövrünü yaşamışdır. 2006-cı ilin oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Yardımlı-Masallı yolunun açılışında iştirak etmişdir. Yenidən qurulan 53 km-lik yolun 100-dən çox sərt döngəsi vardır. Yol boyu 6 körpü bərpa edilmişdir. Layihənin smeta dəyəri 10 milyon manat olmasına baxmayaraq, 8 milyon manat xərclənmiş, 104 ton asfalt-beton işləri görülmüşdür [5]. Bu yol 54 kəndin, o cümlədən, Masallı rayonunun 6, Yardımlı rayonunun 48 yaşayış məntəqəsinə gediş-gəlişi asanlaşdırmışdır. Yolun hərəkət hissəsinin eni 7 m. asfalt beton ilə örtülmüşdür.

2007-ci il ərzində Yardımlı-Hamarkənd yolunun 3 km. hissəsi, Yardımlı-Daşkənd məhəllə yolunun 2 km. hissəsi, Yardımlı-Şəfəqli yolunun 1 km. hissəsi əsaslı təmir olunaraq əhalinin istifadəsinə verilmişdir. Qış mövsumündə ciddi problem yaradan Yardımlı-Qabaqdibi, Sırıq, Alçabulaq yolu əsaslı təmir olunmuş, Primbel, Dağüzü, Qaraqaya, Avaş, Arvana, Bilnə, Telavar kənd yolları təmir edilmiş, Viləş çayı üzərində Ürəkəran kənd yolunda körpü, Dəryavaz kəndinə gedən yolda piyada körpüsü inşa edilmişdir. Yardımlı şəhərinin Şah İsmayıl Xətai küçəsində yol boyu işıqlandırma sistemi quraşdırılmış, həmin küçəyə 1000 $m^2$-ə yaxın asfalt örtük çəkilmişdir. Rayonun Ünənc kəndinə asfalt örtük çəkilmiş, ümumilikdə Yardımlı şəhəri daxilində 4 min $m^2$ yola asfalt örtük çəkilmişdir [6].

2007-ci il ərzində Lənkəran şəhərində 54800 $m^2$ magistral yol sahəsi əsaslı təmir olunmuşdur. Havzava, Xarxatan, Şiləvar, Digah kəndlərində 21540 $m^2$ yol sahəsinə asfalt örtülmüşdür, Lənkəran rayon üzrə əhaliyə nəqliyyat xidmətinin keyfiyyətinin yaxşılaşdırmaq məqsədilə marşrutlar üzrə işləyən avtobus və mikroavtobuslara "Marşrut" pasportları verilmişdir. Rayon üzrə sərnişin daşıma 1.2 faiz, yükdaşıma isə 3 faiz artmışdır [7]. 2008-ci ildə Lənkəran rayonu üzrə Daşratük-Biləsər avtomobil yolunun 12 km. hissəsində, Osaküçə-Günəhir-Türkənçil avtomobil yolunun 10 km. hissəsində Gəgiran-Tüədo yolunun 8 km-lik hissəsində təmir işləri aparılmış, yol üzərində yerləşən 3 ədəd körpü, 18 ədəd su ötürücü borular yenisi ilə əvəz olunmuşdur. Osaküçə-Günəhir yolunda uzunluğu 24 m. olan 2 ədəd metal konstruksiyalı körpü quraşdırılmış, Osaküçə-Bəliton yolunun 6.15 km-lik hissəsi təmir olunaraq çınqıl döşənmişdir [7]. Torpaq sürüşməsi nəticəsində Horavenç-Bəliton yolunun müəyyən hissəsi yararsız vəziyyətə düşdüyü üçün yenidən bərpa olunmuşdur. 42 saylı Yol İstismar İdarəsinin hesabında göstərilir ki, Ələt-Astara, Lənkəran-Zövlə avtomobil yollarında təmir işləri aparılmış, burada 12 ədəd yeni yol nişanları quraşdırılmış, şəhərin M.Füzuli, Ş.Xiyabani, F.Məmmədov, P.Təhməzov, Ş.Axundov küçələrinə 18.8 min $m^2$ sahəyə asfalt döşənmişdir [8].





2006-cı ildə Cəlilabad rayonu üzrə Cəlilabad Seyidbazar avtomobil yolunun 4 km-i, Cəlilabad Hamarqışlaq yolunun 1 km-i, Göytəpə-Privolnoye yolunun 7 km-i, Cəlilabad-Təklə-Ləkin-Yardımlı avtomobil yolunun 5 km-i asfaltla örtülmüş, şəhərin Azərbaycan, Təbriz, S.Vurğun, Babək, N.Gəncəvi, Ə.Rəhimov, Qarabağ, M.Hadi, M.Hüseynzadə, V.Niftəliyev, 20 Yanvar, S.Axundov, V.Mürsəlov, M.Ə.Rəsulzadə küçələri təmir edilərək tam asfaltla təmin edilmişdir. Cəlilabad rayonu 56 saylı Yol İstismar İdarəsinin hesabatında göstərilir ki, idarənin xidmətində olan 307 km-lik kəndlər arası avtomobil yollarından 133 km-inə asfalt örtülmüş, 105 min nəfərin yaşadığı 90 kəndi birləşdirən 174 km-lik kəndlər arası yola çınqıl tökülmüşdür [9].

2006-cı ildə Astara rayonu üzrə respublika əhəmiyyətli Ələt-Astara-İran sərhədi avtomobil yolunda avtoqreydlə yol çiyinləri hamarlanmış, 18840 m. küveytlər təmizlənmiş, 29825 $m^2$ sahə çınqıl materialı ilə bərkidilmiş, 16025 $m^2$ sahə asfalt-beton qarışığı ilə təmir edilmişdir [10]. Yerli əhəmiyyətli Siyəku-Şəmətük, Siyəkü-Marzəsəy avtomobil yollarında çınqıl materialı ilə Lovayn-Pəlikəş, Astara-Qamışovka, Pensər-Kakalos, Pensər-Şahağacı avtomobil yolları asfalt örtüyü ilə təmir edilmişdir. Eyni zamanda Vaqo kəndi daxili yollarında 1800 $m^2$, Təngərüd kəndi daxili yollarında 5200 $m^2$, Səncərədi kənd daxili yollarında 6000 $m^2$ avtomobil yolu asfalt ilə örtülmüşdür. Astara rayonu üzrə yol tikinti təmiri xeyli genişləndirilərək, Lovayn-Pəlikəş, Kijəbə-Burzubənd, Pensər-Toradi, Pensər-Şahağac, Pensər-Kakalos, Sərək-Şüvi, Kijəbə-Qəçimardə avtomobil yollarında 86000 küvetlər təmizlənmiş, asfalt örtüyü yenilənmişdir [10]. Astara rayonu üzrə yol və nəqliyyatın yenidən qurulması nəticəsində əhaliyə 222.4 min manat nəqliyyat xidməti göstərilmişdir ki, bu da keçən ilə nisbətən 73.2 faiz çoxdur.

Bölgənin hava nəqliyyatı da inkişaf dövrünü yaşayır. Ölkə başçısının tapşırığı ilə Lənkəran Hava Limanı tikilərək beynəlxalq hava nəqliyyatına qoşulması təmin edilmişdir. 2008-ci ildə oktyabrın 7-də Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyev Lənkəran Beynəlxalq Hava Limanının açılışını etmişdir. Hava limanı dəniz səviyyəsindən 28 m. aşağıda yerləşdiyi üçün, burada 240 min $m^2$ sahəyə rütubətə davamlı geotekstil döşənmişdir. Uçuş-enmə zolağının uzunluğu 3300 m, eni 60 metrdir. Əlavə olaraq, 600 m. Qoruyucu, eləcə də hər iki tərəfdə 600 metrlik işıqlı zolaq inşa edilmişdir. Tikinti işlərini Türkiyənin "Zema" şirkəti həyata keçirmişdir. Bakıdan-Lənkərana hava relsləri yeni acılmışdir. Hava limanından Moskvaya birbaşa rels açılaraq, meyvə-tərəvəz və kənd təsərrüfatı məhsullarının daşınması həyata keçiriləcəkdir. Açılış mərasimində cənab İlham Əliyev demişdir: "Mən çox şadam ki, bu gün bu aeroport açılır. Həm xarici görünüşü baxımdan, həm də bütün təchizatı baxımdan beynəlxalq standartlara uyğundur. Həm uçuş-enmə zolağının uzunluğu, həm də burada göstəriləcək bütün xidmət, bir sözlə, hər şey dünyada ən inkişaf etmiş şəhərlərin aeroportlarına tam uyğun şəkildədir. Bu doğurdan da böyük hadisədir. Aeroportun təkcə Lənkəran üçün deyil, təkcə bu bölgə üçün deyil, bütövlükdə Azərbaycanın hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyəti olacaqdır. Onu da demək istəyirəm ki, bu aeroportun uçuş-enmə zolağına istənilən təyyarələrin enməsi mümkündür. Həm sərnişin, həm də ən ağır yük təyyarələrinin buraya gəlməsi mümkündür. Bu şübhəsiz, Azərbaycanın inkişafına çox böyük təkan verəcək, cənub zonasının inkişafına kömək edəcəkdir" [11]. Ölkə rəhbərliyinin hava nəqliyyatı sa-həsindəki bu uğurlu addımı bölgənin iqtisadi cəhətdən inkişafına şərait yaratmışdır.

2011-ci ildən başlayaraq Lerik rayonu üzrə Piran kəndinin kənddaxili yollarına 2670 $m^2$, Noda kənddaxili yollarına 2400 $m^2$, Peştətük kənd daxili yollarına 2750 $m^2$ asfalt döşənmişdir. Uzunluğu 56 km. olan Lənkəran-Lerik yolu yağan intensiv yağışlar nəticəsində baş vermiş torpaq sürüşmələri ilə nəqliyyatın gediş-gəlişi dayanır [12]. Bu məqsədlə yolun 17, 20, 23, 26, 27, 28, 30, 47 və 53-cü km-də əsaslı təmir işləri aparılmış, bərpa və betonlama həyata keçirilməsi ilə torpaq sürüşmələrinin qarşısı alınmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012 ci il 3 aprel tarixli Sərəncamı ilə Lerik-Qosmalyan-Kəlvəz avtomobil yolunun tikintisi üçün ilkin olaraq, 3 milyon manat ayrılmış, yolun 8.6 km-i asfaltla örtülmüşdür. Yolun tikintisinin tam başa çatdırılması üçün Nazirlər Kabineti tərəfindən 2013-cü il üçün əlavə olaraq 8,7 min manat vəsait ayrılmışdır. Rayon üzrə Piran-Hamarat, Piran-Veri, Blaband-Cayrud, Lerik-Nuravud kəndlər arası yollar bərpa





edilərək əhalinin gediş və gəlişi xeyli asanlaşmışdır. Lərmərüd-Masallı yolunda əsaslı təmir işləri ilə əlaqədar yolun 5-ci km-də yük maşınlarının rahat hərəkət etməsi üçün körpü inşa edilmişdir. Əliabad-Akçay, Piran-Bürsülüm, Tikəband, Əliabad-Livədirgə kəndlər arası yollar təmir edilmişdir. Bürsünbül kəndi ərazisində iki istiqamətdə körpü, Orand, Livədirgə, Vərəndə kəndlərində çayların üzərində piyada keçidi inşa olunmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 2011-ci il 30 iyul tarixli Sərəncamı ilə Masallı rayonu üzrə Köhnə Alvadı-Güllütəpə, Şıxlar-Qızılağac, Ərkivan-Boradigah-Rüdəkənar avtomobil yolunun tikintisi üçün 5.5 milyon manat ayrılmışdır. Aparılmış təmir tikinti işləri nəticəsində qısa zamanda yolun tikintisi başa çatdırılmış, asfalt örtüyü yenidən çəkilmişdir. Masallı rayonu üzrə uzunluğu 47.5 km olan yola asfalt döşənmiş, 24 km-lik Həsənli-Xırmandalı, Kürdəbaz-Qarğalıq, Seybətin-Səmidxan, Musaküçə-Lürən, Qodman-Qəriblər avtomobil yolları əsaslı təmir edilmişdir. Rayonun 6 yaşayış məntəqəsini birləşdirən uzunluğu 14 km. olan Kolatan-Sığdaş, 6 yaşayış məntəqəsini birləşdirən uzunluğu 4 km. olan Bambaşı-Yenikənd avtomobil yolu asfalt örtüyü ilə döşənərək yenidən qurulmuşdur [13].

2012-ci il iyulun 31-də 14 yaşayış məntəqəsini, 24 min nəfərin yaşadığı Cəlilabad-Hamarqışlaq-Sadafli avtomobil yolu istifadəyə verilmişdir. Yolun inşası zamanı 32 su keçidi, 3 körpü su ötürücüsü quraşdırılmış, yolun asfalt örtüyünün eni 5.2-6 m-dir ki, yola ümumilikdə 90 min $m^2$ ikiqat asfalt örtülmüşdür. 2012-ci ildə Cəlilabad rayonunun nəqliyyat sektorunda məhsul buraxılışı ümumilikdə 4798.0 min manat olmaqla, rayon üzrə ümumi məhsul buraxılışının 1.2 faizini təşkil edir. İl boyu bu sahədə fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən 875.0 min ton və ya 2011-ci ilin göstərişinə nisbətən 7.4 faiz çox yük daşınmışdır. Daşınan yüklərinin hamısı avtomobil nəqliyyatı vasitəsi ilə həyata keçirilmişdir. 2012-ci ildə rayon üzrə 12096 min nəfər sərnişin daşınmış və bu keçən illə müqayisədə 7.0 faiz çoxdur [14, s.82].

2012-ci ildə Yardımlı rayonunun 44 saylı Yol İstismar İdarəsinin hesabatında göstərilir ki, 7 km olan Yardımlı-Bozayaran-Büzünbül yolu, 6 km. olan Jij-Ərsilə yolu, 7 km. olan Şiləvəngə-Ökü-Mamügan yolunun 4 km-i, 0,7 km. olan Yardımlı-Vəlixanlı yolu, 2 km. olan Şəfəqli-Perinbel yolu, 0.5 km olan Hamarkənd-Abasabad yolu, 8 km. olan Yardımlı-Şəfəqli yolu, 1.5 km olan Horavar-Əvəngül yolu, 0.2 km olan Dəryavar yolu, 0.8

km. olan Ləzran yolu çınqıl örtük döşənməklə təmir olunmuşdur [15]. 2012-ci ildə Urakəran bələdiyyəsinin vəsaiti hesabına 6 min nəfər əhalisi olan 7 yaşayış məntəqəsini birləşdirən Urəkəran kəndində Viləş çayı üzərində eni 6 m., uzunluğu 12 m. olan körpü tikilərək istifadəyə verilmişdir. Teksan kəndində yük həcmi kiçik olan avtomobillər üçün körpü istifadəyə verilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cu il 21 fevral tarixli Sərəncamı ilə Yardımlı-Deman-Avana avtomobil yolunun təmiri məqsədiylə 5 milyon manat ayrılmışdır. Ölkə başçısının 2013-cu il 10 sentyabr tarixli Sərəncamı ilə 12 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Hamarkənd-Abasabad yolunun tikintisi üçün 5.5 milyon manat ayrılaraq təmir-tikinti işlərinə başlanılmışdır. Hər iki Sərəncamdan irəli gələn məsələlər uğurla həyata keçilmiş, əhalinin gediş-gəlişi xeyli asanlaşmışdır.

2012-ci ildə Yardımlı rayonu üzrə nəqliyyat sektorunda yük və sərnişin daşınması üzrə xidmətin həcmi faktiki qiymətlərlə 1134.9 min manat olmuşdur ki, bu da keçən illə müqayisədə 10.8 faiz çoxdur. 2012-ci ildə avtomobil nəqliyyatı ilə 395 min ton yük daşınmışdır, bu da əvvəlki ilə nisbətən 22 min ton çoxdur. Avtomobil nəqliyyatı ilə yük dövriyyəsi 2011-ci ildəki 30.7 milyon ton artaraq 33.3 milyon tona çatmışdır. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması əvvəlki ilə nisbətən xeyli artmışdır. Belə ki, 2011-ci ildə sərnişin daşıması 1889 min nəfər olduğu halda 2012-ci ildə artaraq 2025 min nəfər olmuşdur [16, s.46].

Azərbayca Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 8 iyun tarixli Sərəncamı ilə 20 yaşayış məntəqəsini birləşdirən 40 min nəfər əhalinin istifadə etdiyi Lənkəran-Vilvan-Osaküçə-Türkənçil avtomobil yolunun 22.7 km. hissəsi yenidən qurulmuşdur. Tikinti işlərini "Lənkəran-yol tikinti" ASC həyata keçirmişdir. Ölkə başçısının 2013-cu il 29 iyul Sərəncamı ilə 15 yaşayış məntəqəsini birləşdirən 47261 nəfərin istifadə etdiyi Vilvan-Zövlə-Boladi-Liman avtomobil yolunun 18 km-lik hissəsi əsaslı təmir edilərək istifadəyə verilmişdir. Hələ Sovet dövründən yararsız olan bu avtomobil yolları indi əsaslı təmir edilərək yerli əhaliyə xidmət göstərir.

2013-cü il 14 sentyabr tarixli digər Sərəncamı ilə 3 yaşayış məntəqəsini birləşdirən 10 min nəfər əhalinin istifadə etdiyi Liman-Nərmanabad-Balıqçılar avtomobil yolunun 18,8 km-i tam təmir olunaraq istifadəyə verilmişdir. Lənkəran rayonu üzrə yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi xeyli asanlaşmışdır. 2013-cü ildə Lənkəran rayonunda avtomobil nəqliyyat vasitəsi ilə yük daşıması əvvəlki ilə müqayisədə 4,7 faiz artaraq 27039 min nəfər olmuşdur. Nəqliyyat sektorunda məhsul buraxılışın həcmi 9101,4 min manat olmuş, 2012-ci illə müqayisədə 10,1 faiz artmışdır. Məhsul buraxılışının həcmində yük daşımasından əldə olunan gəlirlər 2789,0 min manat, sərnişin daşınmasından əldə olunan gəlirlər 6312,4 min manat olmuşdur [17, s.48].





Rayon üzrə dağ kəndləri olan Diryan-Gəgiran, Bəleton-Biləsər yolunda 5 ədəd dəmir-beton konstruksiyalı körpü inşa edilmişdir. Dövlət vəsaiti hesabına Lənkəran şəhərinin daxili küçələrində 39 min $m^2$ yol əsaslı təmir edilmiş, rayonun Darqula kəndində 2500 min $m^2$, Boladi kəndi 750 $m^2$, Liman şəhərində 4500 $m^2$ yola asfalt döşənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015 ci il 14 aprel tarixli Sərəncamı ilə 9 yaşayış məntəqəsini birləşdirən 12,9 min nəfərin yaşadığı Aşağı Nüvədi-Kənarmeşə-Şürük avtomobil yolunun 11.2 km-i əsaslı təmir olunması məqsədiylə 3.2 milyon manat ayrılmışdır. Yol əsaslı təmir olunaraq əhaliyə xidmət göstərir.

2016-cı il 52 saylı Yol İstismar İdarəsinin hesabatında göstərilir ki, Lənkəran-Lerik yolunun 2, 7, 32, 52-ci km-dən keçən hissəsində istinad divarları tikilmiş, sürüşmənin qarşısını almaq üçün yol bərpa edilmiş, idarə tərəfindən il ərzində 607.4 min manatlıq təmir-tikinti işləri aparılmışdır [18]. Respublika əhəmiyyətli yollardan Bakı-Astara magistral avtomobil yolunun 25 km. Masallı, 94 km. Lənkəran, 25 km. Astara rayonlarının ərazisinə düşür [19, s.193]. Bununla yanaşı Masallı-Yardımlı (14 km.), Lənkəran-Masallı (18 km.), Lənkəran-Lerik (14 km.) rayonlararası yük və sərnişin daşınmasında mühüm rol oynayır.

2014-cü ildə Cəlilabad rayonu üzrə uzunluğu 74 km. olan Cəlilabad-Ləkin-Yardımlı yolunun 40 km. çınqıl döşənərək bərkitmə işləri aparılmış, həmin yolun 37 km., Alar-Təzəkənd-Uçtəpə-Cəfərxanlı-Əliqasımlı avtomobil yolunun 11 km., Cəlilabad-Astanlı-Gəngan-Soltankənd avtomobil yolunun 8.2 km. asfalt örtülmüşdür [20]. "Kənd investisiya layihəsi" əsasında rayonun Komanlı, Həziabad, Kazımabad kəndlərinin daxili yolları 14.4 km, Böyük Bərcivan, Muğan, Komanlı, Ağbulaq, Alasar, Şatırlı, Badamağac, Kövüzbulaq, Adnalı kənd yollarına 97.7 km., Ağdaş, Oğrubulaq, Fətullaqışlaq, Vəklik, Badamağac, Sabirabad, Ləkin, Çinar, Şıxlar, Günəşli, Uzuntəpə, Maşlıq kənd yollarına 134.6 km. çınqıl örtül-

müş, tikinti-təmir işləri aparılmışdır [20]. 2016-cı ildə uzunluğu 9 km. olan Cəlilabad-Uzuntəpə, Göytəpə-Komanlı avtomobil yolunun 5.7 km-i asfalt örtüyü ilə tam təmir edilmişdir. 46 saylı Yol İstismar İdarəsinin hesabatında göstərilir ki, Ələt-Astara avtomobil yolunun Cəlilabad rayonu ərazisində 41650 $m^2$ çınqıl döşənmiş, 24750 $m^2$-i asfalt beton qarışığı ilə təmir edilmişdir [21]. 2016-cı ildə Cəlilabad rayonu üzrə nəqliyyat sektorunda məhsul buraxılışı ümumilikdə faktiki qiymətlərlə 63005 min manat olmaqla rayon üzrə ümumi məhsul buraxılışının 1.1 faizini təşkil etmişdir. Son ildə bu sahədə fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən 1073.0 min ton və ya 2015-ci ilin göstəricilərinə nisbətən 2.8 faiz çox yük daşınmışdır. İl boyu 14910.0 min nəfər sərnişin daşınmış, bu da 2015-ci illə müqayisədə 1.7 faiz çoxdur [22, s. 82].

2015-ci ildə Yardımlı rayonu üzrə uzunluğu 1.5 km olan Çayüzü, 2.5 km. olan Pirembil kənd yolu asfalt örtüyü ilə təmir edilmişdir. Bununla yanaşı, Ərsilə, Jij, Zenin, Bərcan, Çanaxbulaq, Porsava, Zeynələzir, Honuba-Şıxlar, Honula, Horavar, Əngövül, Yolcaq, Şiləvəngə, Kürəkçi, Dağüzü, Perinbel, Gilar, Gavran, Ostayır, Burzunbül kənd yolları təmir edilərək çınqılla örtülmüşdür. İl ərzində rayonda ümumilikdə 220 km. yol əsaslı təmir edilmiş, 104 km-i asfalt, 116 km-i isə çınqılla örtülmüşdür. Viləş çayı üzərində Keçələkəran kəndinə gedən yolda yükgötürmə qabiliyyəti 30 ton, Ağ çay üzərində Teşkan kəndinə gedən yolda yükgötürmə qabiliyyəti 50 ton olan yeni körpülər inşa edilmişdir [23].

2016-cı ildə Yardımlı rayonu üzrə nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və avtomobil nəqliyyatı sahəsində çalışan fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından 1328.1 min manat gəlir əldə edilmişdir. Bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 44.6 min manat və ya 3.5 faiz çoxdur. Əldə edilən 1328.1 min manat gəlirin 934.1 min manatı fiziki şəxslər üzrə sərnişin daşınmasından 393.9 min manatı isə yükdaşımadan əldə edilmişdir. 2016-cı ildə avtomobil nəqliyyatı ilə fiziki şəxslər və bu sahədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən 2472 min nəfər sərnişin daşınmışdır. Bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 93 min sərnişin və ya 3.9 faiz çoxdur. 2016-cı ildə Yardımlı rayonu üzrə yük daşınması 463 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrünə nisbətən 17 min manat və ya 3.8 faiz çoxdur [24, s. 41].





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yol və nəqliyyatın inkişafı ilə bağlı gördüyü tədbirlər nəticəsində bölgədə yaşayan əhalinin gediş-gəlişi asanlaşmış, mərkəz ilə əlaqələri yaxşılaşmışdır. Bölgənin sosial-iqtisadi inkişafını maliyyələş-dirilməsini sürətləndirən Sərəncamları və tədbirləri buna sübutdur. 2018-ci il iyulun 23-də cənab İlham Əliyevin imzaladığı Sərəncamla 32 min əhalinin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci, Səmədxanlı-Xallıcalı-Eminli Məmmədxanlı avtomobil yolunun tikintisi ilə bağlı 7.5 milyon vəsait ayrılmışdır. Yerli əhali ölkə başçısının nəqliyyat sahəsində həyata keçirdiyi siyasəti yüksək qiymətləndirir və onun ətrafında sıx birləşərək, gələcəyə inamla irəliləyirlər. Yol və nəqliyyat infrastrukturunun inkişafı nəticəsində bölgədə mühüm işlər aparılmış, dövlət vəsaiti hesabında uğurlu layihə həyata keçirilmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan yol tarixi yaradıcıları ensiklopediyası. I cild: Bakı: 2009, 440 s.
2. Əsədov A.Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri. Bakı: Avropa, 2014, 338 s.
3. Masallı rayon icra hakimiyyətin cari arxivi. 2011-ci il üçün icra hakiminin illik hesabatı.
4. AzərTac, 08 may, 2006-cı il.
5. Xalq qəzeti. 27 oktyabr, 2006-cı il.
6. Yardımlı rayon icra hakimiyyətinin cari arxivi, 2007-ci il üçün icra hakiminin illik hesabatı.
7. Lənkəran rayon icra hakimiyyətinin cari arxivi. 2007-ci il üçün icra hakiminin illik hesabatı.
8. Lənkəran rayon icra hakimiyyətinin cari arxivi. 42 saylı Yol İstismar İdarəsinin 2007-ci ildə gördüyü işlər haqqında arayışı.
9. Cəlilabad rayonu icra hakimiyyətin cari arxivi. 56 saylı Yol İstismar İdarəsinin 2006-cı ildə gördüyü işlər haqqında arayışı.
10. Astara rayon icra hakimiyyətin cari arxivi. 2006-cı il üçün icra hakiminin illik hesabatı.
11. Xalq qəzeti. 9 oktyabr, 2008.
12. Lerik rayon icra hakimiyyətin cari arxivi. 2011-ci il üçün icra hakiminin illik hesabatı.
13. Masallı rayon icra hakimiyyətin cari arxivi. 2011-ci il üçün icra hakiminin illik hesabatı.
14. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Cəlilabad rayonunun statistik göstəriciləri, 2007-2012. Cəlilabad: 2013, s. 109.
15. Yardımlı rayon icra hakimiyyətinin cari arxivi. 44 saylı Yol İstismar İdarəsinin 2012-ci ildə gördüyü işlər haqqında arayış.
16. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Yardımlı rayonunun statistik göstəriciləri (2007-2013). Yardımlı: 2013, s. 96.

17. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Lənkəran rayonunun statistik göstəriciləri (2010-2016). Lənkəran: 2017, s. 72.
18. Lerik rayon icra hakimiyyətin cari arxivi. 52 saylı Yol İstismar İdarəsinin 2016-cı il üçün gördüyü işlər haqqında arayış.
19. Məmmədov Z. XIX əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: Azərnəşr, 2007, 386 s.
20. Cəlilabad rayon icra hakimiyyətinin cari arxivi. 2014-cü il üçün icra hakiminin illik hesabatı.
21. Cəlilabad rayon icra hakimiyyətin cari arxivi. 46 saylı Yol İstismar İdarəsinin 2016-cı il üçün gördüyü işlər haqqında arayış.
22. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Cəlilabad rayonunun statistik göstəriciləri (2012-2017). Cəlilabad, 2018, s. 107.
23. Yardımlı rayonu icra hakimiyyətin cari arxivi. 2016-cı il üçün icra hakimin illik hesabatı.
24. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Yardımlı rayonun statistik göstəriciləri (2012-2016). Yardımlı, 2017, s. 75.

## THE DEVELOPMENT OF ROAD AND TRANSPORT İNFRASTRUCTURE İN THE SOUTH-EASTERN REGİON OF THE REPUBLİC OF AZERBAİJAN (2003-2018)

## SUMMARY

The socio-economic policy pursued by Mr. IlhamAliyev, President of the Republic of Azerbaijan, contributed to the development of road and transport in the country. The article is dedicated to the organization and reconstruction of road and transport infrastructure in the south-eastern región of the Republic.In the mentioned period, construction of Alat-Astara four-strip road was completed in accordance with international standards, and new roads were constructed and repaired in the area. As a result, the traffic between the settlements has been simplified, the time delay has been eliminated, the road and transport infrastructure of the region has been made meeting to modern standards.

## РАЗВИТИЕ ДОРОЖНОЙ И ТРАНСПОРТНОЙ ИНФРАСТРУКТУРЫ В ЮГО-ВОСТОЧНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (2003-2018)

## РЕЗЮМЕ

Социально-экономическая политика, проводимая Президентом Азербайджанской Республики г-ном Ильхамом Алиевым, способствовала развитию в стране автомобильных дорог и транспорта. Статья посвящена организации, и реконструкции дорожно-транспортной инфраструктуры в юго-восточной части республики. В указанный период в соответствии с международными стандартами было завершено строительство четырехполосной дороги Алят-Астара, а также были построены и отремонтированы в этом районе новые дороги. В результате было облегчено движение между населенными пунктами, устранена задержка во времени, обновлена дорожно-транспортная инфраструктура региона.